# Ulu öndərin siyasi irsi daha dərindən öyrənilməlidir

## *Səbail rayonunda "Heydər Əliyev - Azərbaycan: dünən, bu gün və sabah" kitabının təqdimatı olmuşdur*

Ümummilli lider Heydər Əliyevin doğum günü ərəfəsində Səbail Rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının birgə nəfis tərtibatla hazırladığı "Heydər Əliyev - Azərbaycan: dünən, bu gün və sabah" adlı kitabı işıq üzü görmüşdür. R.Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyində təqdimata toplaşan qonaqlar öncə muzeyin foyesində Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotosərgi ilə tanış olmuşlar.

Kitabda Heydər Əliyevin fəaliyyətinin müxtəlif dövlərini əhatə edən, Azərbaycanın son 30 il ərzində əldə etdiyi iqtisadi-siyasi inkişaf aspektlərindən, ölkəmizdə həyata keçirilən daxili və xarici siyasətdən, xalq təsərrüfatının bütün istiqamətlərindən, ordu quruculuğu, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə əldə olunan uğurlardan, ulu öndərin siyasi kursunun layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyevin bu gün həyata keçirdiyi işlərdən bəhs edən məqalələr və xeyli sayda fotoşəkillər toplanıb.

Təqdimat mərasimində çıxış edən Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov qeyd etmişdir ki, ulu öndər Heydər Əliyevin və möhtərəm Prezident İlham Əliyevin müasir Azərbaycan tarixindəki rolu öz əhəmiyyəti baxımından heç nə ilə müqayisə oluna bilməz. Bu iki dahi insanın siyasətini öyrənib təbliğ etmək çox vacibdir. Buna görə də bu kitabın təqdimatı önəmlidir və böyük əhəmiyyət kəsb edir.





Milli Məclisin Sədr müavini Bahar Muradova, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov, YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev çıxış edərək ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin ayrı-ayrı sahələrinə, onun ölkəmizin müstəqilliyi, iqtisadi tərəqqisi və inkişafı istiqamətində gördüyü işlərə nəzər saldılar. Qeyd edildi ki, Heydər Əliyevin əsasını qoyduğu və möhtərəm Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilən siyasətin uğurlarına və gələcək perspektivlərinə həsr olunmuş məqalələrin toplandığı kitabın əhəmiyyəti, onun gələcək nəslin tərbiyəsi və maariflәndirilməsi istiqamətindəki rolu böyükdür. Çıxışlarda bu kitabın ilk olduğu və gələcəkdə də bu seriyadan olan digər kitabların çap olunacağı bildirildi.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***